# ƏDİB YAD EDİLDİ

Fevralın 24-də özünəməxsus yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixində xüsusi yer tutan görkəmli yazıçı, pedaqoq, ədəbiyyatşünas və tərcüməçi Abdulla Şaiq Talıbzadənin anadan olmasının 121-ci ili tamam oldu.



Bu münasibətlə ədəbi-mədəni ictimaiyyətin iştirakı ilə ədibin respublika Fəxri xiyabanındakı məzarı önündə anma mərasimi keçirilmişdir.

Mərhumun ruhuna dua oxunması ilə başlanan tədbiri yazıçının oğlu, Milli Elmlər Akademiyasının akademiki Kamal Talıbzadə açdı və atası ilə bağlı xatirələrini mərasim iştirakçılarıyla bölüşdü. A.Şaiq irsinin araşdırıcılarından Əflatun Saraclı, akademik Maqsud Əliyev, ədəbiyyatşünaslar Şamil Salmanov, Alxan Bayramoğlu, Respublika Mədəniyyət Nazirliyinin şöbə rəisi Əli İsmayılov, tədqiqatçılardan Minaxanım Əsədli, Aybəniz Kəngərli çıxış edərək ədibin bədii, elmi-pedaqoji yaradıcılığından bəhs etdilər, ədəbiyyat tariximizin inkişafındakı rolunu, milli söz sənətimizin dəyərli nümunələrinin yaradılması yolundakı zəhmətini yüksək dəyərləndirdilər.

1902-ci ildə A.Şaiq Həbibbəy Mahmudbəyovun rəhbərlik etdiyi məktəbdə dərs demişdir. Bu gün Həbibbəy Mahmudbəyovun adını daşıyan Texniki Humanitar Elmlər Litseyinin müəllim və şagird kollektivi A.Şaiqin mənzil muzeyi ilə əlaqə yaradıb birgə müxtəlif tədbirlər keçirirlər. Mərasimdə litseyin ədəbiyyat müəllimi Ellada Ramazanovanın hazırladığı ədəbi-bədii kompozisiya nümayiş etdirildi. Litseyin şagirdləri şairin "Bir günəşin zərrəsiyik", "Vətən", "Zəhmət və zinət", eləcə də rus və ingilis dillərinə tərcümə olunmuş şerlərini söylədilər.

Sonda akademik Kamal Talıbzadə tədbir iştirakçılarına təşəkkürünü bildirmişdir.